# Ömrün 74-cü pilləsi

**Bu pilləyə qalxmaq üçün Ağaş Mirzəzadə ömrünün 56 ilini kitablar arasında əridib...**

**Kitab və kitabxana elə bir xəzinədir ki, ondan bəhrələnən elm və mərifət, saf mənəviyyat və əqidə sahibi olur.**

Ömürlərini kitaba və kitabxanaya bağlayanlar mənəvi varlıq, hörmət və nüfuz qazanırlar. Lerik rayonunda çox yaxşı tanınan, ömrünün 56 ildən çoxunu kitabxana işinə həsr edən Günəşli kənd kitabxanasının müdiri Ağaş Mirzəzadə də belələrindəndir.

O nəinki Lerikdə, həm də respublikada tanınmış ziyalılardan biridir. Kitaba, peşəsinə o qədər bağlıdır ki, özünü sevimli işindən, kitablardan ayrı təsəvvür etmir.

Kitabxanada tez-tez maraqlı tədbirlər , görkəmli ədəbiyyat və incəsənət xadimlərinin, həmçinin yerli ziyalıların yubiley mərasimləri, müxtəlif mövzuda elmi-praktik konfranslar, xatirə gecələri keçirilir.

Kitabxanaya hər gün çoxlu sayda oxucu gəlir, istədikləri kitabları alıb oxuyur, dünyagörüşlərini artırırlar. Kitabların alınma faizi, kitabxanaya oxucuların gəlməsi demək olar ki, digər kitabxanalardan yüksəkdir.



Bütün bu işlərdə birinci növbədə rəhbər işçi kimi Ağaş Mirzəzadənin əməyi böyükdür. Qazanılan uğurlar onun bacarıqlı təşkilatçı, kitabxana işinin mahir bilicisi olması ilə bağlıdır.

A.Mirzəzadə rayonun ictimai-siyasi həyatında fəal iştirak edir. Əlamətdar bayramlar və günlərdə maraqlı çıxışlar edir. Yeni Azərbaycan Partiyasının üzvüdür.

1960-cı ildə Bakı kitabxanaçılıq texnikumuna daxil olmuş, 1962-ci ildə texnikumu fərqlənmə diplomu ilə bitirmişdir.

Söhbət zamanı Ağaş müəllim uğurlarla yanaşı qarşıya çıxan problemlərdən də söz açdı:

- Ekspertlər kitaba marağın sönməsinin səbəbini ilk növbədə internet şəbəkəsinin genişlənməsində, əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsində görürlər. Bir tərəfdən də ümumi ixtisaslaşma bədii ədəbiyyatı sıxışdırır, onu ikinci dərəcəli çap məhsuluna çevirir.

Təəssüf ki, XXI əsrin uşaqları kitaba o qədər də həvəs göstərmirlər. Ağır məktəb proqramı ilə yüklənmiş və daha çox antivizual vasitələrə - kinoya, televiziyaya, mobil rabitəyə, kompüter oyunlarına meylli yeniyetmələr kitabdan ayrı düşürlər.

Bu fakt pedaqoqları, psixoloqları, valideynləri son dərəcə narahat edir. Çünki belə getsə bütöv bir nəsil bədii ədəbiyyatdan bixəbər böyüyə, bədii ədəbiyyat gələcək nəslin formalaşmasından kənarda qala bilər. Hər bir adama bəllidir ki, əvvəl söz yaranıb, söz əbədidir, teatr, kino, televiziya, internet və digərləri onun əsasında qurulub. Buna görə də uşaqlar arasında kitabın nüfuzunu artırmaq üzərində ciddi düşünülməlidir...

74 yaş insan ömrünün müdriklik çağıdır. A.Mirzəzadə ömrünün bu dönəmində də işindən ayrılmır, kitablarımızın təbliği sahəsində əzmlə çalışır.

● **Rəqsanə BAXŞIYEVA,**
***Lerik rayonundakı N.Muradov adına orta məktəbin XI sinif şagirdi***

**Redaksiyadan:** Ağaş Mirzəzadə həm də jurnalımızın fəal yazarlarındandır. Bölgədə həyata keçirilən mədəni tədbirlər barədə vaxtaşırı məqalələri çıxır.

Zəhmətsevərliyi ilə seçilən Ağaş müəllim bu günlərdə "Qızıl Qələm" media mükafatına layiq görülüb. Bu münasibətlə onu ürəkdən təbrik edir, gərəkli fəaliyyətində ona uğurlar diləyirik.